**Türkiyəli ekspert: COP29 iqlim böhranı ilə mübarizədə yeni mərhələ olacaq**

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iqlim böhranı ilə mübarizədə yeni mərhələ və dayanıqlı dünya quruculuğunda sanballı addım olacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ankaradakı Böhran Vəziyyətləri və Siyasətlərinin Araşdırılması Mərkəzinin (ANKASAM) eksperti Ekin Güllüoğlu deyib. Onun sözlərinə görə, "Yaşıl dünya naminə həmrəylik" devizi altında təşkil edilən COP29-un tematik tədbirlərinin gündəliyini və proqramını nəzərə alaraq əminliklə deyə bilərik ki, iştirakçı ölkələr dünya ictimaiyyətinə Paris İqlim Sazişi öhdəliklərinin qarşıya qoyduğu vəzifələri yerinə yetirmək üçün atılan addımlar barədə məlumat vermək imkanı əldə edəcəklər.

"Bakıdakı müzakirə platforması həm də istixana qazlarının emissiyasının azaldılması və yaşıl texnologiyaların tətbiqi nəzərə alınmaqla ölkələrin inkişaf strategiyalarının müəyyən edilməsi baxımından yaxşı imkan yaradacaq və bizə ərzaq təhlükəsizliyinin təmin edilməsi yollarını müzakirə etməyə, iqlim maliyyəsi kontekstində ümumi dil tapmağa imkan verəcək", -deyə ekspert bildirib.

Güllüoğlu diqqəti havanın çirklənməsinə ən az cavabdeh olan, lakin iqlim dəyişikliyindən ən çox əziyyət çəkən inkişaf etməmiş ölkələrin problemlərinə çəkib. "Alimlər hesab edirlər ki, qlobal istixana qazı emissiyalarının yalnız 4 faizi Afrikadan gəlir. Üstəlik, iqlim dəyişikliyinin mənfi nəticələrinə ən çox həssas olan da məhz bu qitədir. Ətraf mühitin çirklənməsinin cəmi 1 faizini təşkil edən, lakin su altında qalmaq təhlükəsi ilə üzləşən ada dövlətləri də oxşar problemlərlə qarşılaşır", -deyə ANKASAM-ın analitiki bildirib.

Öz iqtisadi inkişafı naminə inkişaf etməkdə olan ölkələrin iqlim böhranının nəticələrinə məhəl qoymayan dövlətlərə yönəlmiş tənqidlərə haqq qazandıran ekspert bildirib ki, bütün bunlar dünyada "iqlim ədaləti" anlayışının olmaması fikrini yaradır.

Analitik Azərbaycanın ekoloji sahədə müəyyənləşdirdiyi hədəflərə də toxunub: "COP29-a ev sahibliyi edən ölkə 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmağı planlaşdırdığını açıqlayıb. Eyni zamanda, Bakı respublikanın enerji ehtiyacının 30 faizini bərpaolunan mənbələr hesabına təmin etməyi planlaşdırır".

Güllüoğlu sağlam mühitdə yaşamaq imkanının hər bir insanın təməl hüquqlarından biri olduğunu vurğulayıb.

"Əsasən mədən yanacaqlarının yanması nəticəsində atmosferdə istixana qazlarının konsentrasiyasının artması bir çox ölkələrdə artıq hiss olunmağa başlayan ciddi mənfi nəticələrə malikdir. Yaxın gələcəkdə zərərin sürəti və miqyası durmadan artacaq. Bizim ekoloji sahədə ölkələr arasında birgə addımlara və sıx əməkdaşlığa ehtiyacımız var. Bu isə o deməkdir ki, COP29 kimi tədbirlər xüsusilə vacibdir", -deyə türkiyəli ekspert bildirib.

**Ramin Abdullayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**
**2024, 1 noyabr**